DOI: https://doi.org/10.36719/2706-6185/35/68-71

**Mikayıl Mustafayev**
AMEA Arxeologiya və Antropologiya İnstitutu
tarix üzrə fəlsəfə doktoru
mustafayev_info@yahoo.com

# QIZILTƏPƏ ABİDƏSİ

**Xülasə**

Qızıltəpə abidəsi İmişli rayonunun Qızılkənd ərazisində yerləşir. Arxeoloji qazıntılar nəticəsində aydın olmuşdur ki, Qızıltəpə orta əsr abidəsi Səlcuqlar dövrünün müdafiə xarakterli və ciddi mühafizə olunan qalası olmuşdur.

Qızıltəpə abidəsi ilə eyni tipli abidələrə Orta Asiyanın Türkmənistan bölgəsində də rast gəlmək olar. Fərqli dövrlərə aid olmasına baxmayaraq, bu abidələr həm ad, həm də yaşayış yeri olması baxımından oxşarlıq təşkil edir. Abidənin İpək və Zəfər yolunun üzərində yerləşməsi Azərbaycanın orta əsr şəhərləri ilə, eyni zamanda Yaxın və Uzaq Şərq əraziləri ilə geniş ticarət əlaqələrinin olmasına şərait yaratmışdır.

***Açar sözlər:*** *Azərbaycan, İmişli, Qızıltəpə, arxeoloji ərazi, qala*

**Mikayil Mustafayev**
ANAS Institute of Archeology and Anthropology
Doctor of Philosophy in History
mustafayev_info@yahoo.com

## Giziltepe Monument

**Abstract**

Monument to Giziltepe, located in Gizilkend, Imishli district. As a result of archaeological excavations, it became clear that the medieval monument of Giziltepe was a defensive and strictly guarded fortress of the Seljuk period.

Monuments of the same type as the Giziltepe monument can be found in the Turkmenistan region of Central Asia. Despite belonging to different periods, both the name and the place of residence are similar. The location of the monument on the Silk and Victory Roads has created conditions for extensive trade relations with the medieval cities of Azerbaijan, as well as with the Near and Far East regions.

***Keywords:*** *Azerbaijan, Imishli, Giziltepe, archaeological site, castle*

## Giriş

Azərbaycan öz maddi və mənəvi mədəniyyəti ilə dünya sivilizasiya tarixində xüsusi yer tutur. Bu baxımdan, Azərbaycan Milli Elmlər Akademiyasının İmişli arxeoloji ekspedisiyası tərəfindən Qızılkənd ərazisində yerləşən Qızıltəpə abidəsində arxeoloji qazıntı işlərinə başlanıldı (ASE, 1980: 430).

İmişli rayonunun arxeoloji tədqiqinə hələ XX əsrin 60-cı illərinin sonlarında başlanılmışdır. H. Kəsəmənli ərazidə yerüstü materialları toplamış və əldə olunan artefaktlar əsasında eramızın əvvəlindən başlayaraq son orta əsrlərə qədər ərazidə intensiv yaşayış yerlərinin olmasını təsdiq etmişdir (Kesemenli, 1970: 25).

Qədim yaşayış yeri xalq arasında “Qızıltəpə” kimi tanınır. Abidə yer səthindən 20 m yüksəklikdə dairəvi formadadır. Üzəri qalın bitki qatı ilə örtülmüşdür. Abidə ilk dəfə 1969-cu ildə arxeoloq H. Kəsəmənli tərəfindən qeydə alınmışdır (Kesemenli, 1970: 14).

Orta əsr yaşayış yeri olan Qızıltəpə abidəsinin etimologiyasına nəzər salsaq, sözdəki “qızıl” qırmızı, “təpə” isə top sözü ilə əlaqələndirilir. Orta əsr abidəsinin müdafiə xarakterli və ciddi

qorunan bir qala olduğu aydınlaşıb. İki hissədən ibarət olan Qızıltəpə 5 hektardan çox ərazini əhatə edir. 14 metrə yaxın hündürlüyü olan tarixi abidənin ətrafını rahat şəkildə müşahidə etmək olur (Şəkil 1).



**Şəkil 1.**

Bu yerin bir özəlliyi və unikallığı da ondan ibarətdir ki, qala tamamilə su hövzəsi ilə əhatə olunub. Həmçinin müşahidələr zamanı qalanın digər tarixi abidələrlə– Muxurtəpə, Bəhrəmtəpə, Yedditəpə və s. ilə perpendikulyar yerləşməsi müəyyənləşdirilmişdir. Bundan başqa, araşdırma zamanı abidənin ətrafında qala divarlarının qalıqlarına da rast gəlinmişdir (Mustafayev, 2014: 47).

Qızıltəpə abidəsində tədqiqatlara öncə kəşfiyyat, yerüstü materialların toplanılması, daha sonra 5 x 5 sahə götürülməklə arxeoloji qazıntı işlərinə başlanılıb (Şəkil 2, 3).



**Şəkil 2.**



**Şəkil 3.**

Qazıntı zamanı isə sahə 8 x 6 ölçüdə genişləndirilib. Qazıntıya təpənin şimal-qərb hissəsindən başlanılmış və 40 sm dərinliyə qədər qazılmışdır. Təmizlənərək üzə çıxarılan üst hissədə bişmiş kərpicdən hörülmüş divar izlərinə rast gəlinib. Bu təbəqədən müxtəlif keramika nümunələri və bir ədəd kiçik ölçüdə gildən hazırlanmış əyircək tapılmışdır. Qazıntılar davam etdirilərkən təxminən 90 sm dərinlikdə çiy kərpicdən hörülmüş divar aşkar olunub. Ölçüsü 21 x 22 x 5 sm ölçüyə malik kərpiclər bir-birinə paralel şəkildə düzülmüşdür (Şəkil 4, 5).



**Şəkil 4.**



**Şəkil 5.**

Qazıntı sahəsinin şimal-qərb hissəsində təxminən sahənin 30 sm dərinliyində aşkar edilmiş kürənin ağız hissəsinin diametri 45 sm, hündürlüyü isə 50 sm-dir. Kürənin şərqə və şimala doğru hissələri çiy kərpic düzümü ilə əhatə olunmuşdur (Mustafayev, Aliyeva, Nahmatova, 2021: 15). Kərpiclərin eni 5 − 8, uzunluğu isə 30 − 40 sm olub, bir-birinə paralel, şimal-qərb istiqamətində şaquli formada düzülmüşdür. Aşkar olunmuş divarın uzunluğu şimal-qərb istiqamətində 180 sm, şimal-şərq istiqamətində isə 130 sm uzunluğu əhatə edir. Divardan kürənin şimal hissəsinə doğru məsafə isə 200 sm-dir.

Bişmiş gildən hazırlanmış, qırmızımtıl rəngdə olan kürənin divarının qalınlığı 6 sm-dir. Onun gövdəsinin hər iki tərəfində diametri təxminən 10 sm olan dəlik açılmışdır. Dəliklər kürənin ağız hissəsindən 24 sm aşağı, oturacaqdan 17 sm yuxarıda yerləşir.

Qızıltəpə abidəsində əldə olunan keramika nümunələri, əsasən, qum qarışıq gildən hazırlanmış, bəzilərinin üzəri yapma, bəzilərinin isə cızma naxışla bəzədilmişdir. Aşkar olunmuş şirli qablar, əsasən, yaşıl rəngdə olub, üzəri qəhvəyi rəngli naxışlardan ibarətdir. Bəzi şirli qab parçaları mavi rəngli, bəziləri isə ağ, üzəri qəhvəyi naxışlıdır.

Qazıntı sahəsindən üç ədəd mis pul aşkarlanmışdır.

1. Sultan Arslan şah (1161−1177), Atabəy Məhəmməd Cahan Pəhləvan (1175 −1186). Mis dirhəm 12,62 qr. D = 22 − 32 mm.

AV− İki düzxətli çərçivənin daxilində − “əl-sultan əl-əzəm Arslan/məlik əl-ümara/atabəy Məhəmməd”.

RV − İki düzxətli çərçivənin daxilində − “əl-sultan əl-əzəm əl-dünya və əl-din Cahan Pəhləvan”.

2. Sultan Toğrul, Məhəmməd Cahan Pəhləvan (1175 −1186). Mis dirhəm 12,62 qr. D = 22-32 mm.

AV− İki düzxətli çərçivənin daxilində − “əl-sultan əl-əzəm Arslan/məlik əl-ümara/atabəy Məhəmməd”.

RV − İki düzxətli çərçivənin daxilində −“əl-müəzzəm/əl-sultan”. Çərçivənin daxilində: − “La ilahə illəllah Məhəmməd Rəsul Allah”.

3. Azərbaycan Atabəyləri dövlətinin hakimi Sultan Qızıl Arslanın (1186 − 1191) mis felsi 12.49 qr. D = 22-23 mm.

AV − Sikkənin mərkəzində − “Sultan müzəffər...” ifadəsi oxunur.

RV − Sikkənin mərkəzində İslam simvolu verilib (Mustafayev, Aliyeva, Nahmatova, 2021: 16-17).

Sahənin cənub-qərb hissəsində 127 sm dərinlikdə təndir aşkar edilmişdir. Təndirin iç hissəsi küllü torpaqdan ibarət idi. Yanmış daxili divarında üfüqi istiqamətdə bir-birinə paralel şəkildə cızma xətlərlə naxışlar əks olunub. Təndirin ağzının kənar hissələrinə kərpic düzülmüşdür. Təndirin ağzının diametri 40, dərinliyi isə 50 sm-dir. Təndirdən təxminən 35 sm cənub-qərb istiqamətdə yeni təndir izi aşkar olunub. Onun ağız hissəsinin diametri 35 sm-dir (Mustafayev, 2005: 147).

Sahənin şimal-şərq hissəsi təmizlənərkən aşkar olunan qalın üst təbəqədən xeyli sayda keramika nümunələri tapılıb. Bəhs olunan divarda 15 −18 kərpic hündürlüyündə düzüm vardır. Alt hissədə olan sonuncu kərpic bişmiş kərpicdir.

Sahənin cənub-qərb hissəsində yeni divar düzümü aşkar olunub. Dördbucaq planlı evin cənub-qərb və şərqə doğru olan çiy kərpicdən hörülmüş divarları yaxşı vəziyyətdə idi. Divarın ən alt düzümü bişmiş kərpicdən hörülmüşdür. Şərqə doğru olan divarın çöl hissəsində də bir-birinə paralel şəkildə olan kərpic düzümü aşkar olunmuşdur.

Qızıltəpə abidəsi ilə eyni tipli abidələrə Orta Asiyanın Türkmənistan bölgəsində də rast gəlmək mümkündür. Fərqli dövrlərə aid olmasına baxmayaraq, həm ad, həm də yaşayış yeri olması baxımından oxşarlıq təşkil edir. Bu, Orta Asiya tarixində Altun Təpə mədəniyyəti adlanır. Bundan başqa, Qazaxıstanın Qızılqum rayonunun Otrar şəhərində də bu tipli şəhər xarabalıqlarına rast gəlinir. Arxeoloji qazıntılar zamanı qədim şəhərdə ayrı-ayrı məhəllələr, hündür qala ilə əhatə olunmuş İçərişəhər aşkar olunmuşdur. Şəhərin siyasi tarixinə nəzər salarkən görünür ki, 1219 – 1220-ci illərdə şəhər Çingiz xanın qoşunlarının basqınına məruz qalmış, eləcə də böyük fateh Teymur da 1405-ci ildə burada vəfat etmişdir. Bu xarabalıqlarda XI − XIII əsrlərə aid olan xeyli

sayda maddi mədəniyyət nümunələrinə rast gəlinir. Qeyd edək ki, Böyük İpək Yolu Otrardan keçdiyi üçün şəhərin adına bütün orta əsr ərəb və fars yazılı mənbələrində rast gəlmək olar (7).

Qazaxıstanda digər bir oxşar abidə Jambil vilayətinin Taraz şəhərinin 45 kilometrliyində yerləşən VIII – XIII əsrlərə aid "Akirtas" saray kompleksidir.

XI-XII əsrlər Tarazın çiçəklənmə dövrünü əhatə edir. Arxeoloqlar tədqiqatlar zamanı bu dövrə aid keçmiş bazarın ərazisində Qazaxıstanın ən qədim İslam mədrəsəsini və Zərdüşt qurbangahını aşkar ediblər.

Qazaxıstanın digər bir orta əsr qala-şəhəri, səhrada aşkar olunan Sauran (Sayram) yaşayış yeridir. Şəhər dağıntıya məruz qalsa da, qorunub saxlanılan qalıqlardan burada klassik Şərq şəhər həyatının mövcudluğu görünməkdədir.

İlk arxeoloji tədqiqatlarına 40-cı illərin sonlarında başlanılmış Sauran iki yerdə mövcud olmuşdur: Monqol İmperiyasından əvvəlki dövrdə (VI – XII əsrlər) Qaratobe qədim yaşayış məskəninin yerində. Yeni yerə köçürülüb eyniadlı abidəyə uyğunluq təşkil edən XIII – XVIII əsrlərdəki Sauran şəhər divarının hündürlüyü 6, qalınlığı 3 metrə qədərdir. Şəhər haqqında ilk məlumata X əsrdə yaşamış məşhur ərəb coğrafiyaşünası Maqdisinin əsərində rast gəlinir: "Sauran (Savran, Sabran) – yeddi divarla əhatə olunmuş böyük şəhər, şəhərin içində yerləşən məscid". Tarixçi İbn əl-Əsir və coğrafiyaşünas Yakut da Sauranın mədəniyyət və ticarət-sənət mərkəzi, İpək Yolu marşrutunda mühüm strateji obyekt, ticarət limanı olduğunu vurğulamışdırlar (8).

## Nəticə

Yuxarıda qeyd edilən bu orta əsr şəhərləri və qalaları istər Azərbaycan ərazisində, istərsə də Orta Asiyanın cənub-qərbində olan abidələrin oxşarlığının, həmçinin iqtisadi və mədəni inkişaf prosesi nəticəsində ilk şəhərlərin, eləcə də proto-şəhər sivilizasiyasının yaranmasının göstəricisidir.

## Ədəbiyyat

1. Azərbaycan Sovet Ensiklopediyası. (1980). Bakı: Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası, IV cild, 616 s.
2. Kesemenli, G.P. (1970). Otchet Milsko – Mughanskoy ekspeditsii za 1969 g. Nauchniy Arxiv Instituta Istorii AN Azerb. SSR. M.: Nauka, 136 s.
3. Kesemenli, G.P. (1970). Novyye pamyatniki v Mughanskoy i Mil'skoy stepyakh. AO 1969 g. M: Nauka, 140 s.
4. Mustafayev, M.M. (2014). Mukhurtepe Medival Settlement (III–XIV) Centuries. Baku: ANAS, 126 p.
5. Mustafayev, M.M., Aliyeva, F., Nahmatova, I. (2021). Archaelogical monuments of the Imishli region. Baku: ANAS, 135 p.
6. Mustafayev, M. (2005). Giziltepe Monument Azerbaijan National Academy of Sciences Institute of Archaeology and Etnography. Baku: pp. 139 – 149.
7. Shest' krupneyshikh arkheologicheskikh nakhodok Kazakhstana za posledniye 50 let. (14.11.2018). https://tengrinews.kz/article/6-krupneyshih-arheologicheskih-nahodok-kazahstana-poslednie-941/
8. Dulatov, M. (25.09.2014). Sem' velikikh arkheologicheskikh otkrytiy Kazakhstana. https://e-history.kz/ru/news/show/6299/

Göndərilib: 10.03.2024 Qəbul edilib: 08.05.2024